Çərkəz Məcid

# İşıq telləri



# ÇƏRKƏZ MƏCİD



Çərkəz Məcid (1937–1989) Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində ruhani ailəsində anadan olmuş, ömrünü pedaqogika və ədəbiyyata həsr etmiş tanınmış şair-publisistdir. Pedaqoji fəaliyyəti bir missiya hesab edən ədib, xüsusilə Ağ çiçəklər" (1973), "İşıq telləri" (1984) kimi uşaq şeirləri topluları ilə yadda qalmışdır. Bu yaxınlarda şairin iki dəyərli şeir kitabı çap edilmişdir.

Vətənpərvərliyi və haqq yolundan dönməməsi ilə seçilən Çərkəz Məcid, milli dəyərlərə bağlılığına görə müəyyən təzyiqlərlə üzləşmişdir. O, 1989-cu il 6 yanvarda vəfat etmişdir.

Bu topluluqda təqdim ediləm şeirlər Çərkəz Məcidin "İşıq telləri" kitabındandır.

Azərbaycan Qadınlarının Dəstək Mərkəzi

www.azerwomen.ca

Mart 30, 2026

Toronto, Ontario

# Vətən

Vətən mənim çörəyim,
Daşdan süzülən suyum.
Vətən mənim bayramım,
Həm kədərim, həm toyum.

Atamı, anamı da
Mənim kimi bəsləyib,
İşıqlı sabahlara,
Gələcəyə səsləyib.

Verməmisən borcunu,
Önündə mən suçluyam.
Bir qarış torpaq üçün
Öz ömrümü borcluyam.



Çərkəz Məcid

# VƏTƏNLƏ SÖHBƏT

Xalid
Vətən, sevir atam səni.
Vətən, sevir anam səni.
Sən məni də yetirmisən,
Boya-başa çatdırmısan.
İndi fikirləşirəm mən –
Nəylə çıxım əvəzini?

Vətən
Hörmət eylə atana da,
Hörmət eylə anana da.
Çiçəklərə hörmət elə,
Böcəklərə hörmət elə...
Torpaq şumla, ağac bitir,
İnsanlara xeyir yetir.

Ver könlünü yaxşı işə,
Yaxşılığı elə peşə...
Mən də səni övlad sanım,
Ol əzizim, mehribanım.



# DİLİMİZ

Xalid:
– "Çiçək" sözündə neçə söz yaşar?
Gülsən:
– "Çiçək" sözünün bir mənası var.
Xalid:
– Bu ki olmadı, bilmirsən demək.
Gülsən:
– Buyurun görək.
Xalid:
– "Ək" qalacaq da, "çək" sözündən çıxarsaq "ç"ni...
Gülsən:
– Düzünü desəm, bilməzdim bunu.
Belə olarmış?
Bizim nə gözəl dilimiz var imiş?
Xalid:
– "Çiçək" sözündə neçə söz yaşar?
Gülsən:
– "Çiçək" sözünün bir mənası var.
Xalid:
– Bu ki olmadı, bilmirsən demək.
Gülsən:
– Buyurun görək.

ÇƏRKƏZ MƏCİD



## ÇIX, GÜNƏŞİM

Çıx, günəşim, çıx görüm,
Çıx, başına döndüyüm.
Dünyamıza bax görüm,
Bax, başına döndüyüm.

İşıq-işıq tellərin
İşıldasın sularda.
Şüa-şüa dillərin
Pıçıltısın sularda.



Tarlalarda iş qalır,
Çıx ki, yatan ayılsın.
Yamaçlara quzular
Sürü-sürü yayılsın.

## LAYLAMI ÇAL

Ay ana, çal laylamı,
Qoy eşidim bir də mən.
Ürəyimə nur düşür
Sənin layla səsindən.

Ay ana, şəkər kimi
Yaman şirindir laylan.
Qışda həzin pıçıltı,
Yayda sərindir laylan.

Laylamı çal, laylamı,
Ürəyimdə yaz olsun.
Solmaz çiçəklər kimi
Laylan da solmaz olsun.

ÇƏRKƏZ MƏCİD

# BORCUNU QAYTAR

Bu gün küçədə
yıxılmışsan sən.
Durğuzub səni
bir yoldan ötən.

– Nə dedin ona?
– Dedim: "Çox sağ ol,
minnətdaram mən".
– Düz söyləmisən,
əhsən, gül balam!

– Dedi ki, "dəyməz,
borcumuzdur bu.
Yıxılanları
durğuzan zaman
qaytaracaqsan
mənim borcumu".



# İKİ "BEŞ"

Bir gün tənbəl Əziz də
kimyadan "beş" istədi.
– Nə olar ki, bir dəfə
mənə "beş" verin, – dedi.

Müəllim dedi: – Oğul,
"Beş"i borc verdim sənə.
Səhər dərsi bilməsən,
geri alacam yenə.

Səhər beş barmaq tək
Əziz dərsini bildi.
Tək darıxmışdı bir "beş",
bir "beş" də üstə gəldi.
Əziz öz biliyində
"3"dən qalxmışdı "5"ə,
birinci "5" utandı,
ancaq ikinci "beş"ə.



ÇƏRKƏZ MƏCİD

## KİMİNDİR

Bu ev kimindir? – Usta Əzizin.
– Bu kənd kimindir? – Bu kənd də bizim.
– Tarla kimindir? – Tarla da bizim.
– O çay kimindir? – Vətənimizin.
– O dağ kimindir, bu bağ kimindir?
–Yurdumda nə var, Vətənimindir.



## BAHAR QIZ

Kəmalənın donunda bitibdi tər bənövşə,
Qoftasında lalələr, göz tək olur həmişə.
Yaylığında qızılgül bağlanıbdı – dəstədir,
Gülün yanında bülbül yaşıl budaq üstədir.
Hörməsinin üstündə çobanyastığı vardı;
Çiçəkləyib paltarı... Məgər bu qız bahardı?

## YEKƏ KÖKƏ



Xalid dedi:
– Nənə, tez ol, bərk acmışam.
Mənim üçün kökə sal.
Ancaq bir az yekə sal.
Nənə dedi:
– Əziz gözüm, şirin arzum,
Yekə çörək "kökə" olmaz.
Məndən kökə istəyirsən –
Kökə salsam yekə olmaz.

## YAZ SƏHƏRİ



Külək əsir narın-narın,
pıçıldadır yarpağını, budaqların.
Qızılgülün ləçəyindən sürüşür şeh,
silkələyir zanbaqları səhərlər, eh...
Günəş çıxır indi, çağın nurlanacaq.
O nur altda sevinclərimiz
Bulaq kimi gurlanacaq.



# AY BİZİMLƏ OYNAYIR

Gecə ay nurlandırar
Dünyamızı çıraq tək.
Göydə görünər bəzən
Sapı sınmış oraq tək.
Üzər o göy üzündə
Ağappaq quşa bənzər,
Hərdən elə nazilər
Göz üstə qaşa bənzər.
Əziz dostumuzdur ay,
Bizə həmişə gülər,
Hərdən dostumuz olub
Bizlə birlikdə oynayır.



# ƏKSƏN BIÇƏRSƏN

Acdı çiçəklər,
Ağ kəpənəklər
Dağıldı kəndə,
Uçdu çəməndə.

Traktorçular
Çıxıb tarlaya
Çiyid səpdilər.
Düzüldü səf-səf
Pambıq çərgəsi.

Köpükləndi çay,
Saldı hay-haray.
Ötdü turaçlar,
Güldü yamaçlar

Gəlbi oxşadı
Əmək nəğməsi.
Nə yaxşıdır bax,
Zəhmətkeş olmaq.
Baharda əksən
Payız biçərsən



ÇƏRKƏZ MƏCİD

# OXU, OXU TORAĞAYIM

Hər axşamda, hər səhərdə
Bu jovşanlı təpələrdə
Şirin nəğmə deya-deyə
Torağayım, millən göyə.

Bu dovşanlar gəzən yerə,
Bu yovşanlı təpələrə
Nəğmə çilə, nəğmə çilə,
Qoy sevinək nəğmən ilə.

Oxu, oxu, torağayım,
Fərəh selim, sevinc çayım.
Nəğmən mənə ərmağandı,
Şeirim sənə nəğmə payım.



Çərkəz Məcid

# KUKLALARIN DOSTLUĞU

Gülnaz sevir Fatmanı,
Fatma sevir Gülnazı.
Fatma dedi: – Kuklamız
Bizdən qalar narazı.

Gətir, tanış eləyək,
Əziz dost olsun onlar.
Bizim kimi həyatda
Onlar da oynasınlar.

O gündən kuklalar da
Oynamağa gəldilər.
Bacı kimi onlar da
Oynadılar, güldülər.



## DÜNYA ŞAXTA BABADIR

Yenə qar yağır dağa, dərəyə,
Uşaqlar baxır ağappaq göyə.
Nə qədər çoxdur bu quşbaşı qar!
Göydə dağılır, yerdə yığılır...
Bir mən deyiləm seyrinə çıxan –
Eldir, obadır; dünyanın özü Şaxtababadır.

## SALAMLAR



Tezdən günəşi
Salamla, balaş
Günəşi salamla
Qoy çıxsın yola.

Hər kim durar
Günəşdən qabaq,
Günəş o kəsi
Salamlar ancaq

Kim ona salam
Verərsə əgər,
Günəş də onu
Sağlam eyləyər.



## İŞILDABÖCƏK





Otun dibində
İşıldaböcək
İşıq saçırdı;
O ot dibində
Onun nurundan
Zülmət qaçırdı.



## AYNA BULAQ



Bulaq qaynayır,
Onun gözündə
Qumlar oynayır.
Bulağın suyu
"Qaynamasaydı",
Kiçik ləpələr
"Oynamasaydı",
Elə bilərdim
Bulaq aynadı.

# QARIŞQA YOLU



Qarışqaların
Yoluna Bax Bir:
Otlar Dibində
Uzanıb Gedir.
Sanki Küçədir
Qarışqa Yolu –
Gediş-Gəlişlə
Doludur, Dolu.

# ADLARINI QOYAN QUŞLAR

Göyərçin uçmuş göyə, adı Göyərçin olmuş.
Qapqara olduğundan qaranquşdur Qaranquş.
Qarğa "qar-qar" eyləyib – adı Qarğa qalıbdı.
"Tut bit" deyən quşların adı Tutbit olubdu.
"İsaq-Musaq" deyənlər İsaq-Musaq olubdu.
Çox quşlar özlərinin adlarını qoyublar;
belə quşlardan deyin, hansısı qaldı, uşaqlar?

# AD GÜNÜ



Aynurun ad günüydü,
Gözəl bir bahar günü.
Çiçəklər bəzəmişdi
Budaqların üstünü.

Aynur gördü çəməndə
Uçuşur kəpənəklər –
Öz ad günü gələndə
Elə bildi açılır
Çəməndəki çiçəklər.

# ÇAYLAR

Bir çay vardı içməli,
bir çay vardı keçməli,
bir çay vardı əkməli.
Səhər-səhər çay içdim,
çırmandım, çayı keçdim,
tarlamızda çay əkdim.

# YAĞIŞ

Yağdı dağa,
Yağdı bağa;
Çəmənlərdə
Gül bitirib,
Uşaqlarla
Oynamağa.

# UŞAQ VƏ DUMAN

Dağ başına çıxan duman,
ordan bizə baxan duman,
gəl məni də apar ora –
çıxım, baxım o dağlara.
Duman
Burdan durna keçə bilər,
qartal qanad aça bilər.
Qanadsızlar bu göylərə
necə qalxıb uça bilər?
Uşaq
Çox da belə öyünmə sən,
o qədər də sevinmə sən.
Səndən uca olacağam –
təyyarəçi olanda mən.



## ÇÖRƏK

Ölər, yaşamaz
Çörəksiz insan.
Deməmk həyatdan
Çörək hər zaman.

Zibil qabına
Tullama onu.
Düşün çörəyin
Nə olduğunu.



Qoru çörəyi,
Qədrini anla.
Qayğısını çək,
Min ehtiramla.

Çörək azlığı
Ömrü qısaldar.
Çörəyi sevən
Səni ucaldar.

## GİLAS

Budaqların boynundan
Muncuq-muncuq sallanır;
Sərin-sərin meh əsir,
Yarpağıyla yellənir.



Saplağından asılan
"Gilas" düymə-düymədi;
Darıxıram, gecikdi –
Gilas niyə dəymədi?

# GÜNƏŞ LAMPASI



İliç lampası hər bir evdə var,
nənə evində onu yandırar.
Evlərdən qovar zülmətləri o,
qarşılayınca səhərləri o.
Səhər-məhər bizə lampamız
yanar göylərdə – günəş lampamız.

# "ÇİÇƏYİM" DEYİR

Bir çiçəyi dərmişəm,
Dostuma göndərmişəm.
Mən bilirəm əzəldən –
Dostum sevir çiçəyi;
Kədərlənir çiçəyin
Töküləndə ləçəyi.
O hər gün atasından
Təzə çiçək istəyir;
onun üçün də atası
Ona "çiçəyim" deyir.





ÇƏRKƏZ MƏCİD

# ÇƏMƏN

Dağların arxasından
Qalxdı günəş göylərə;
Buludlar arasından
Nur çiləndi hər yerə.
Çəməndəki otların
Parıldaşdı selləri;
Onu ot yaxasından
Saldı səhər mehları.
Çəmən çiçəklərinə
Uçub qondu arılar –
yurdumuzun beləcə
Çiçəkli baharı var.



# çiçək

Təzə, güllü don
Geymişdi Çiçək;
Qondu o dona
Ggüllü kəpənək.

Diqqətlə baxdı
Kəpənəyə o –
Qanadında ki,
Tər çiçəyə o.

Çiçəkli donda
Çiçəkdi Çiçək,
Qondu onun üçün
Ona kəpənək.



ÇƏRKƏZ MƏCİD

# QALİBİYYƏT BAYRAĞI

Bir top kimi uçub getdi
Günəş dağlar dalına;
Zülmət çəkdi tarlaların,
Dolayların yoluna.
Kənddə lampa, göydə ulduz
bir-birinə bənzədi,

Ulduzlu gecə, lampalı Yer
Dünyamızı bəzədi.
Kaş ki, hər vaxt belə yana-
Yana sülhün  çırağı,
Dalğalana ədalətin qalibiyyət bayrağı.



ÇƏRKƏZ MƏCİD

## ŞANAPİPİK



Şanapipik, yaz səhəri
Nədir bu hay-harayın?
Şanapipik, ver şanını,
Tellərimi darayım.

Şanapipik, gəl dost olaq,
Yuva qurum səninçün;
yaz səhəri şirin-şirin
Nəğmə oxu mənimçün.

## GÜLDAN



Güllü bir güldan aldı,
Gül qoyacaqdı ona.
Dedi: – Bazardan gül al,
Ana, qoyum güldana.
Ana dedi: – Ay qızım,
Onu özün ək, becər;
atalar yaxşı deyib:
Gülü sevən gül əkər.

# XOŞBƏXT OLARSAN

Yaqut
Anam layla çalanda
"Vətən, Vətən!" söyləyir;
laylasıyla səsləyib,
Vətəni o nəyləyir?
Nənə
– Verə bilsən, əzizim,
Ürəyini Vətənə,
xoşbəxt olarsan, quzum,
O "balam!" desə sənə.

---

Xalid dedi İlqara:
– Toplan böyük "küçük"dür...
İlqar dedi:
– Sözə bax! Böyük it "küçük" olmaz –
küçükdürsə, kiçikdir!

---



# QARANQUŞ

Qış yığışıb köçdü, gəl, qaranquş;
alça çiçək açdı, gəl, qaranquş.
Yamaclarda ot bitib, əzizim –
durna sənlə gedib, əzizim.
Gəl, onu da gətir, gəl, qaranquş;
bizə sevinci gətir, gəl, qaranquş.
Yuvan gözləyir səni eyvanda,
neçə-neçə divarda, tavanda.
Gəl, bəzənsin yuvan da, qaranquş;
qanadlansın balan da, qaranquş.
Harda belə yubandın – durma, gəl;
səni sevən qəlbimi qırma, gəl.
Açdı bənövşə – səni görmürəm,
gözlərimi yorma, gəl, qaranquş.



ÇƏRKƏZ MƏCİD

# SƏYAHƏT

Bir dəfə Sumqayıtdan
Mingəçevirə getdim,
Bu gənc şəhərlərin də
Tərifini eşitdim.

Nizami əsərindən
Öyrənmişdim Bərdəni;
Nizamini sevən şəhər
Heyran eylədi məni.

Gəzmişəm Astaranı,
Şəkidə də olmuşam –
Çay, meşə, dağ görmüşəm,
Baxıb heyran qalmışam.

Şamaxı, Ağdam, Şuşa –
Naxçıvanın mənəmi?
Füzuli, Yevlax, Quba –
Doğmadır Bakı kimi.

Gəncə qədim şəhərdir,
gözəl bağ-bağatı var;
Onun duz ortasından
İiti Gəncəçay axar.

Səyahət yaxşı şeydir,
Dostlar, deyirəm sizə;
qalır bircə həsrətim –
Gedəm qədim Təbrizə.



## XEYİRXAH BULUDLAR



Buluda bax, buluda –
Gh burdadır, gah orda;
Dənizdən su götürər,
Tarlalara gətirər;
yuyar yaşıl bağları,
Çəmənləri, dağları.
Bir az da su saxlayar,
Susuz yerə aparar.

## BƏNÖVŞƏ



Bənövşə açıldı,
Xoş ətri
Saçıldı;
Onları
dərdilər,
Dostlara
hədiyyə
verdilər.

Bənövşə
Əllərdə
Qoxudu;
Uşaqlar
"Bənövşə"
Nəğməsini
Oxudu.

## SƏN VƏ GÜL

Təzə açılıb
Baxçamızda gül;
Güldür gülüşün,
Baxçamızda gül.

Sən gül sevənsən
Heyran gül sənə;
Güllər gülüşür,
Sən də gül sənə.

Yaman bənzəyir
Gözlərin gülə,
Gül gülən kimi
Gözlərin gülə.



## BİZİM YAŞIL BAĞIMIZ

Bizim yaşıl bağımız
Bağçada gülümüz var;
Bizim uca dağımız ,
Məhsullu çöllümüz var.

Dağda bulaq qaynayır,
Çayda dalğa oynayır,
Göydə günəş nur yayır,
Ördəkli gölümüz var.

Qopuz çalanda ozan,
Qılınc oynadıb Qazan;
Füzuli şeir yazan,
Laylalı dilimiz var.

Babək bizim eloğlu,
Fxrimizdir Koroğlu;
Namıya məlumdur bu –
Xoşbəxt bir elimiz var.

# TAPAÇAQ



Xalid kiçik bir oğlandı,
Ancaq böyük marağı var;
Hər şey haqda fikirləşər,
Hər şeydən sual çıxarar.
– Sular niyə belə axır?
Günəş niyə belə çıxır?
Pərdə yatır qaran quşlar?
Qorxmurlar ki, keçə daşlar?
Külək hardan əsib gəlir,
Duman hardan üzülüb gəlir?
Yağış yağır – bəs qar nədir?

Payız nədir, bahar nədir?
Sular niyə dönür buza,
Qızlar niyə gülür bizə?
Belə-belə suallardan
Xalid bizə verir hər an;
Hələlik o sual bilir –
Cavabından qalıb uzaq;
Gəzsə əgər, tapaçaqdı –
Cavabını özü bir vaxt.



# HƏDİYYƏ

Həyatimizdə
Güllər əkmişəm,
Suyun vermişəm,
Nazın çəkmişəm.



İndi qapımız
Bir gülzardır –
Hansı gül desən,
Orada vardır.

Bu yasəməndir,
Bu ağ güldür, bax.
Bu nilufərdir,
Bu da ki zanbaq.



Bayram günləri
Dərərəm ondan,
Müəllimimə
Verərəm ondan.

O gülüb alar
Bu hədiyyəni,
Təbrik eyləyər
Bayram üçün məni

# ŞAXTABABA GƏLƏCƏK

Doğdu payız günəşi, xəzan düşüb barlara;
çoban tonqal qaladı, tüstü bürüdü dağları.
Meşənin cığırları bürünüb yarpaqlara,
deşlərdən keçib gedən duman sürü-sürüdür.

Sarı yarpaqlar üstə şeh düşür damla-damla;
günəşin də istisi azalıbdı xeylicə.
Qış gəlişin deyəcək zirvələrə inanla;
soluxmuş örüşlərə yenə yağacaq qar.

Yay aranda başlayıb dağlara köçdüyü tək,
indi dağdan arana Şaxtababa gələcək.



# DAĞ LÖVHƏSİ

Aylı gecə; bir dağ çayı
uğuldayır qulaqlarda.
Yaxınlarda, uzaqlarda
şələlənin hay-harayı.
Açıq səma – ulduz dolu;
gec uzanır karvan yolu.
Bir qayanın üstündə bax –
durmuşuq bir dəstə uşaq.
Sağ tərəfdə bircə topa –
meh yelləyən laləyə bax.
Elə bil ki, bir az bərkdən
üfürülsə, alışacaq.
Qayaların sərt alnında
şələ saçır ay işığı;
dalğaların qırışından
uçur şəfəq yaraşığı.
Nə gözəlmiş dağ gecəsi –
dağ çayları axan yerdə;
çiçək dolu dərələrdə
ləçək cilvə taxan yerdə.





ÇƏRKƏZ MƏCİD

# ANLADIM

Dünən yer əkməliydim,
Dünən arx çəkməliydim;
Tənbəllikdən ərindim –
"Sabah edərəm" dedim.
Həmin günüm ötüşdü,
Sabah gəlib yetişdi;
Sabah da iş gətirdi –
"Bu işi də gör" dedi.
Yeri əkə bilmədim,
Arxı çəkə bilmədim;
İndi bildim: hər işin
Gözəlliyi əməkdir.
Anladım ki, səhərə
İş qoymaq nə deməkdi.



# SEMENT



O daş idi,
Üyünəndə
Una döndü –
Boşaldı o;
Su qatdılar,
Qum qatdılar,
Yenə dönüb
Daş oldu o.

# CƏHƏTLƏR

Hər gün yataqdan
Qalxıram erkən,
Təyin edirəm
Cəhətləri mən.
Üzü günəşə –
Şərqi göstərir,
Arxa tərəfsə –
Qərbi göstərir.

Dayanıb yana
Qolumu tutub,
Sol – Şimal olur,
Sağımca Cənub.
Ayağım altda
Fırlanır dünya;
Başımın üstə
Mavi səma

# HARA GEDİRLƏR

Oğlan
Dağlardan çıxa-çıxa,
Guruldaya-aha-aha,
daşları yıxa-yıxa...
Çaylar, hara gedirsiniz?
Çaylar
Biz gecələr, gündüzlər –
Keçdik dərələr, düzlər;
Gözləyirlər dənizlər –
Biz də ora gedirik.

Oğlan
Nə yaman bərk əsirsən,
Səbrimi də kəsirsən –
Haraya tələsirsən...
Külək, hara gedirsən?
Külək
Dumanlar yatıb qalıb,
Yuxuya batıb qalıb;
hardasa itib qalıb –
Oyatmağa gedirəm.



Oğlan
Siz də deyin, qatarlar –
Gecə-gündüz bığarar...
Yormurmu sizi yollar –
Bəs siz hara gedirsiniz?
Qatar
Kəndlərə, şəhərlərə –
Gedir bir işə hərə;
Məktub gözləyənlərə –
Xoş xəbərə gedirəm.



ÇƏRKƏZ MƏCİD

## ÖYRƏN

Bilmədiyin
İşi görmək
Deyil asan...
Əvvəl gərək
Öyrənəsən,
Bacarasan;
Sonra həmin
İşi görmək
Olar asan.



## NƏR DƏVƏM

Ay dəvəm – hoydu-hoydu,
Yedi tikanı, doydu.
Var dəvəmin cəhazı,
Cəhazının qotazı.
Dəvəm qatar-qatardı,
Çəkdi sarvan apardı;
Löhrəm gedər, yellənər;
Zınqırovu dillənər.



Hoydu – mənim nər dəvəm,
Mərdliyi əzbər dəvəm;
Bütün günü yol gedən,
Yolda dincələn dəvəm.

# QAYA VƏ ÇAY

Dağ döşündə
bir sal qaya
üstdən baxır
axan çaya.





Qaya üstdə
nazlı-nazlı
umarlanır
bir ağ çiçək;
axıb gedən
dalğalara
əl edərək.

Dərədə çay
uğuldayır,
Səsi düşür qayalara.
Burda necə yaraşır, bax:
çay qayaya,
qaya çaya.

# FƏXRİM



Mənim yurdumun
Sərvəti çoxdur,
Ona bərabər
Dünyada yoxdur.
Pambıq əkilir
Muğanda, Mildə;
Nə çox balığı
Dənizdə, göldə.



Gədəbəydədir
Filiz yatağım;
Çıxıb dağlara
Meşə qurşağım.
Belə diyarın
Övladıyam mən –
Sevirəm onu,
Fəxrimdir Vətən.

Bakı neftinin
Şan-şöhrəti var,
Onun dünyada
Öz qüdrəti var.
Lənkərandadır
Limon, portağal;
Gəncə toxuyur
Bər-bəzəkli şal.

Naxçıvan duzu
Dillər əzbəri,
Naftalanınsa
Yox bərabəri.
Üzümlükləri
Demirəm hələ;
Kəhrəba zəmindən
Rəng verir çölə.

ÇƏRKƏZ MƏCİD